

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 156 (23.798)

27 avqust 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibədə sağlamlıqlarını itirənlərə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər. Dövlətimizin başçısı mərasimdə çıxış edərək bildirib ki, bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibədə sağlamlıqlarını itirənlər üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Bakının Xətai rayonu ərazisində yeni yaradılan "Gənclik" parkının açılışında iştirak ediblər.



***Elm və təhsilin cəmiyyətin bütün tarixi inkişaf mərhələlərində rolu əvəzsizdir. Məhz qazanılmış elmi biliklər və onların gənc nəslə ötürülməsi nəticəsində bəşəriyyət bugünkü mədəni inkişafa nail olub. Elmi fikirlərin, araşdırmaların beşiyi olmuş universitetlər isə bu mənada, yüz illərboyu mühüm bir təkamül yolu keçmiş və bu gün dünyəvi inkişafa hərtərəfli töhfə verməkdədir.***

# Muxtar respublikanın inkişafında universitetlər də mühüm rol oynayır



Qədim Naxçıvan özünün elm və təhsil ənənələri ilə Şərqin seçilən mərkəzlərindən olub. Hələ İslam mədəniyyətinin çiçəkləndiyi erkən orta əsrlərdən bəri naxçıvanlı elm və mədəniyyət xadimlərinin fikir və düşüncələri insanların yoluna işıq tutub, indiki nəsillərə qədər gəlib çatan qiymətli xəzinəyə çevrilib. Bu gün də Naxçıvan sahib olduğu potensialla Azərbaycan elm və təhsil məkanında öz sözünü deyən intellekt təbəqəsinə malikdir. Universitetlər başda olmaqla, Naxçıvanda fəaliyyət göstərən elm və təhsil ocaqları dövlətin ən yüksək səviyyədə onlara göstərdiyi dəstəklə bu gün inkişafının zirvə çağını yaşayır.

Universitetdə təhsil almaq, universitet məzunu olmaq hər bir gəncin xəyallarının zirvəsində dayanır. Bu mənada, Naxçıvanda fəaliyyət göstərən ali məktəblər, sözün əsl mənasında, təkcə azərbaycanlı gənclər üçün deyil, bir çox xarici ölkədən gəlmiş əcnəbi tələbələr üçün də çox cazibədar elm, təhsil ocaqları, mühüm sosial inkişaf mərkəzləridir. Muxtar respublikanın ümumi sosial-iqtisadi inkişafına möhkəm diffuziya olunmuş bu tədris ocaqları təmin olunduğu ən yüksəkkeyfiyyətli şəraiti, maddi-texniki bazası və elmi kadrları ilə gənclərin hərtərəfli yetişməsi üçün əlverişli imkanlar yaradır. Tələbələrin asudə vaxtının təşkili, onların sosial-məişət problemlərinin həlli baxımından Naxçıvan mühiti burada təhsil alan hər bir, xüsusən yerli olmayan tələbə üçün həmişə doğmadan da yaxın olub. Muxtar respublikaya ölkəmizin digər bölgələri ilə yanaşı, həm də xarici ölkələrdən təhsil almaq üçün gələn tələbələr dünyanın ən asayişli və rahat yaşayış üçün əlverişli bölgəsində təhsil almaq, gənclik arzularını reallaşdırmaqla özlərini xoşbəxt saya bilərlər.

Hazırda Naxçıvanın 3 ali təhsil müəssisəsində, ümumilikdə, 8 min 874 tələbə təhsil alır. Ali təhsil müəssisələrində yaradılmış təhsil infrastrukturu burada oxuyan tələbələrin seçdikləri ixtisasların bütün incəliklərini dərindən mənimsəməyə imkan verir. Hələ 1967-ci ildə filial kimi yaradılmış Naxçıvan Dövlət Universitetində indiki mərhələdə ingiliscə iqtisadiyyatın tədrisinə başlanılması və yaxud texnopark yaradılması üçün hazırlıqlar aparılması keçilən uğurlu yoldan xəbər verir. Bir neçə ildir, "Naxçıvan" Universitetində tədris olunan Dinşünaslıq, ötən tədris ilindən bu ali təhsil ocağında tədris olunan Beynəlxalq ticarət və logistika, Kompüter mühəndisliyi, Tərcümə (ingilis) ixtisasları ilə yanaşı, qarşıdan gələn tədris ilindən burada Biznesin idarə edilməsi, Marketinq, Sosial iş və İqtisadiyyat (ingilis dilində) ixtisaslarına qəbul aparılacaq. Naxçıvan Dövlət Universitetində tədris olunacaq Elektrik və elektronika mühəndisliyi, Kompüter mühəndisliyi, Beynəlxalq ticarət və logistika, Dövlət və ictimai münasibətlər, Yer quruluşu və daşınmaz əmlakın kadastrı, Hərbi tibb, Psixologiya və Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisasları isə Naxçıvandakı ali məktəblərin cəmiyyətin iqtisadi-mədəni həyatı ilə nə dərəcədə inteqrasiya olunduğunun əyani göstəricisidir. Digər yöndən baxdıqda isə regiondakı ali məktəblərdə fəaliyyət göstərən ixtisaslı kadrların dünyanın öndə gedən düşüncə mərkəzləri ilə başabaş rəqabətdə olduğunu da görə bilərik. Naxçıvanlı elm adamlarının son illərdə nüfuzlu xarici elmi jurnallarda dərc olunmuş çox sayda unikal elmi məqalələri və digər əsərləri bunu deməyə imkan verir.





Universitetlər təkcə elm və təhsil ocaqları deyil, cəmiyyətin, demək olar ki, bütün sahələrinə təsir gücünə malik olan işgüzar müəssisələrdir. Elmi məhsulların mübadiləsi üzrə dövlət və özəl sektor müəssisələri ilə qarşılıqlı əməkdaşlıq apararaq universitetlər həm də yerləşdiyi şəhər, yaxud kampus həyatına gətirdiyi canlılıqla iqtisadiyyatın bir çox digər istehsal və xidmət sahələrini də hərəkətə gətirirlər. Tələbə, müəllim, texniki işçi kimi yüksək mədəni tələbatları ilə də seçilən belə insan potensialı tələbatların ödənilməsi baxımından regional bazara da təsir edir. Beynəlxalq əlaqələri genişləndirməklə universitetlər həm də ölkəmizin yaxından tanınması işində mühüm çəkiyə malikdirlər. Bu mənada, Naxçıvandakı universitetlərdə təhsil alan hər bir əcnəbi tələbə, işgüzar görüşlər, konfranslar, təhsil mübadiləsi üçün muxtar respublikaya gələn hər bir akademik heyət üzvü elit kateqoriyalı turist kimi Azərbaycan iqtisadiyyatına da xarici valyuta qazandırır.

Xaricdə təhsil almaq müasir dünyada geniş yayılmış ənənədir. Xüsusən son onilliklərdə ali təhsil üçün xarici ölkələrə üz tutanların sayı artmaqdadır. Bu sırada öndə gedən ABŞ, İngiltərə, Türkiyə, Fransa, Almaniya, Avstraliya kimi ölkələrin təcrübəsi göstərir ki, xaricə təhsil üçün üz tutanların əsas motivi keyfiyyətli təhsil almaqla yanaşı, dünyagörüşünün artırılması, dostluq qurulması, yeni tanışlıqlar qazanılması, əlavə dillər öyrənilməsi kimi müasir gəncliyi çox maraqlandıran istəklərdir. Belə ki, UNESCO-nun məlumatına əsasən son illərdə dünya üzrə xaricdə təhsil almaq istəyən tələbələrin sayı 5 milyon nəfərə çatıb ki, bunların da yarıdan çoxu Asiya ölkələrindən olub, ABŞ, Avstraliya və Avropa ölkələrini seçirlər.

Ölkəmiz dünyaya inteqrasiya olunduqca qazanılan uğurların da sayı artmaqdadır. Dünya ilə tələbə mübadiləsində də mühüm nəticələr əldə edən ölkəmizdə bu sahəyə ciddi diqqət yetirilir. Belə ki, bir il əvvəlki məlumatlara görə, ölkəmizdəki ali təhsil müəssisələrində 86 ölkədən 6000-dən çox əcnəbi tələbə təhsil alıb. Eləcə də xaricdə təhsil almaq istəyən azərbaycanlıların sayında da artım vardır. Məsələn, təkcə qardaş Türkiyədə 23 min azərbaycanlı tələbə ali təhsil almaqdadır. Bütün bu rəqəmlər təhsil kimi çox vacib bir sahədə inteqrasiyanın əhəmiyyətini göstərir. Muxtar respublikamızda da ali təhsil müəssisələrində mövcud olan təhsil səviyyəsi, tələbələrin asudə vaxtının və sosial-məişət şəraitinin yaxşılaşdırılması da burada oxumaq istəyən əcnəbilərin sayını əhəmiyyətli dərəcədə artırıb. Belə ki, hazırda Naxçıvan şəhərində təhsil alan tələbələrin 1450-si ölkəmizin digər regionlarından gələn, 1050-yə yaxını isə xarici ölkə vətəndaşlarıdır. Naxçıvandakı ali təhsil müəssisələrində əcnəbi tələbə sayının artımı təhsildə rəqabəti artırmaqla bərabər, eyni zamanda mühüm valyuta gəlirləri də deməkdir ki, bu da özünümaliyyələşdirmə prinsipləri ilə fəaliyyət göstərən müəssisələr üçün çox əhəmiyyətlidir.

✍ **Əli CABBAROV**

## Bayraq meydanı inşa olunur



Muxtar respublikada aparılan genişmiqyaslı tikinti-quruculuq işləri Kəngərli rayonunda da uğurla davam etdirilir. Rayonda həyata keçirilən quruculuq tədbirləri çərçivəsində burada Bayraq Meydanı inşa olunur.

Naxçıvan-Sədərək magistral yolunun Qıvraq qəsəbəsindən keçən hissəsinin sol tərəfində inşa olunan Bayraq Meydanının ümumi ərazisi 10 min kvadratmetrdir. Bayrağın ümumi hündürlüyü 36,5 metr olacaq. İndiyədək ərazidə torpaqbərkitmə işləri görülüb, istinad divarları tikilib, hazırda isə bayraq dirəyinin təməl hissəsinin bərkidilməsi işləri aparılır.

**Babək İSMAYILOV**

## Aqrar sahənin inkişafı diqqətdədir

Muxtar respublikamızda məhsul istehsalçılarına güzəştli kreditlərin verilməsi, texnika və gübrə ilə təchizatın yaxşılaşdırılması, suvarma sistemlərinin yenilənməsi, müasir aqrar infrastrukturun formalaşdırılması kənd təsərrüfatının dayanıqlı inkişafına xidmət edir. Digər tədbirlərlə yanaşı, təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının yaxşılaşdırılması da cari ildə diqqətdə saxlanılıb, 2021-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 126 milyon 837 min 300 manat məbləğində kreditlər verilib ki, bu da bir il öncəki göstəricidən 26,8 faiz çoxdur. Verilmiş kreditlərin 15 milyon 192 min 200 manatı və yaxud 12 faizi qısamüddətli, 111 milyon 645 min 100 manatı və yaxud 88 faizi uzunmüddətli kreditlər olub. Aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən layihələr, dövlətin öz vətəndaşına qayğısı, şübhəsiz, müsbət nəticələrin əldə olunmasını şərtləndirib. Belə ki, 2021-ci ilin yanvar-iyul aylarında 267 milyon 560 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 14144 ton, süd istehsalı 62439 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,4 faiz, süd istehsalı isə 1,8 faiz artıb. Dövlət proqramlarının məqsədli şəkildə icrası, aqraryönümlü müxtəlif layihələrin reallaşdırılması ilin qarşıdakı dövründə də kənd təsərrüfatında uğurların əldə olunacağını deməyə əsas verir.

**Xəbərlər şöbəsi**



*“Gecədən xeyli keçmişdi. Hava tutqun olduğundan ətraf zil qaranlığa bürünmüşdü. Çöldə tüğyan edən külək, sanki gücünü göstərirmiş kimi öz vıyıltısını köhnə qapı və pəncərələri cırıldadaraq içəri doldururdu. Arif kişi pəncərənin kənarında oturub düşüncəyə dalmışdı. Onu düşündürən və narahat edən təkcə güclü küləyin evinin dam örtüyünü sıradan çıxarması deyildi. O, ailəsinin dolanışığını təmin etdiyi əkin sahəsini fikirləşirdi. Onsuz da Arif kişi əkin apardığı sahəni suvara bilmədiyi üçün məhsul xeyli az olacaqdı, biçin vaxtı da yetişdiyindən texnika olmadığı üçün məhsulu əl ilə biçməyə məcbur olacağını da bilirdi. Axı o, keçən il də bu problemlə üzləşmişdi. Nəticədə, götürdüyü məhsul gələn ilin toxumluğuna belə, çatmamışdı. Ötən il olduğu kimi, bu il də o, toxumluq buğda, su və texnika üçün müvafiq yerlərə müraciət etsə də, dadına çatan olmamışdı. Otağa daxil olan ömür-gün yoldaşının qapını cırıldatması Arif kişini düşüncələrindən ayırdı. Başını qaldırıb hisdən qaralmış çırağın şüşəsinə diqqət yetirdi. Çırağı əlinə götürüb neftini yoxladı və fərqinə vardı ki, artıq yanacağı qurtarmaq üzrədir. Güllü xanıma üzünü tutaraq: – Güllü, o neftdən bir az gətir, çıraq bir azdan tamamilə sönəcək, – dedi.*

*Güllü xanım həyat yoldaşının problemlərlə dolu düşüncələrinə birini də əlavə etməmək üçün bir az səssizcə gözlədi. Ona zillənmiş gözlərin parıltısından yaxa qurtara bilməyəcəyini hiss etdiyindən:–Artıq neftimiz də qurtarıb, dünən bidonun dibində qalanı da çırağa tökmüşdüm. Yenidən neft tapana qədər qaranlıqda qalacağıq, – dedi və sözünə davam etdi: – Balaca oğlan da xəstələnib, deyəsən, qızdırması var. Sabah onu xəstəxanaya aparmaq lazımdır.*

*–Əgər bu gün yağış yağsa, palçığın dizə qədər qalxdığı kəndin yolları ilə xəstəxanaya getmək mümkünsüz olacaq,–deyə Arif kişi bu sözləri dilə gətirə bilmədiyi üçün naəlac bir vəziyyətdə düşünməyə davam etdi və bir anda onu diksindirən güclü göy gurultusu hədər yerə narahatlıq keçirmədiyinin sübutu oldu”.*




Türkeş kənd sakini Arif Hüseynovun keçmişin tozlu vərəqləri arasında qalan xatirələri əsasında yazdığım qısa hekayə o dövrdə hər bir sakinin günlük problemlərinin, sadəcə, az bir qismi idi. Ötən əsrin 80-ci illərinin sonlarında, 90-cı illərin əvvəllərində istər şəhər və qəsəbələrimiz, istərsə də kəndlərimizdə uçuq-sökük binalar, yararsız tikililər, çala-çökək yollar, daş-kəsəkli səkilər və tikan-qanqal basmış ərazilər, əkilməyən torpaqlar gözdağına çevrilmişdi. İllər öncə insanların necə çətin bir vəziyyətdə yaşadıqlarını dinlədikcə bu gün ilə müqayisə edərək düşünürsən ki, insan möcüzələr yaratmağa qadirdir. Bunun

Müasirləşən bölgələrimiz

# Böyük zəhmətdən və qayğıdan doğan inkişaf – ŞAHBUZ

üçün, gərək, vətənpərvərlik, qurub-yaratmaq istəyi, əzm və fədakarlıq olsun. Artıq bütün çətinliklər geridə qalıb. Sakinlər müasir Naxçıvanın firavan günlərini yaşayırlar. Çünki bu gün Naxçıvanın bütün sosial-iqtisadi, infrastruktur və hərbi məsələləri yüksək səviyyədə öz həllini tapır. Naxçıvan uğurla inkişaf edir. Bu uğurların təməlində ulu öndərin siyasəti dayanır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın ümummilli liderin ideyalarının işığında uğurlu, dinamik inkişafı təmin edilir.

Ölkə başçısı cənab İlham Əliyevin növbəti Naxçıvan səfəri dünyanın



pandemiya sınağına çəkildiyi, iqtisadi böhran yaşadığı bir dövrdə müharibədən yenicə çıxmış Azərbaycanda muxtar respublikanın timsalında sosial-iqtisadi inkişafın əvvəlki dinamik templə davam etdiyini təsdiqləmiş oldu. Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədova “Rekordsmen diyarım” adlı təhlili məqaləsində muxtar respublikanın dünəni və bu gününü oxuculara xatırladaraq yazır: *“Düz 30 ildir, tarix zamanın blokada Naxçıvanını sinəsinə alıb. Onu anası Azərbaycana aparan yolları qapayıb. Bu, sənin üçün bir sınaqdı, diyarım. Bu sınaqdan da üzüağ çıxmısan, şükürlər olsun. Sən elə bir tarixi dövr keçirsən ki, bu, bütün dünya tarixində bir ilkdir. Sən illər sonra dünya tədqiqatçılarının mövzusuna çevriləcəksən. Blokada və inkişaf... Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin mayın 10-da qalib ölkənin ilk Prezidenti kimi Naxçıvana ilk səfəri zamanı bu inkişafı təsdiqləyən dəyərli fikirləri:* ***“Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb”.*** *Bu, tarixin hansı dönəmində görülüb? Hansı diyar əli anasının əlindən kənarda ayaqları üzərində dura bilib? Üstəlik, gözəlliklər məkanına çevrilib? Hansı diyar çıraq işığının qaranlığını əlləriylə boğaraq özünü nura boyayıb? Hansı diyar sənintək 30 ilin əvvəlindəki aclıqdan, səfalətdən ixracatçıya çevrilib? Hansı diyardır ki, öz əlləriylə ağacları kəsib sobada yandırıb, övladlarını ölümdən xilas edib və bir neçə il sonra həmin övladların əlləriylə diyarını yaşıllıqlar məskəninə çevirib? Hansı diyardır, söylə?”*

Bu məqaləni oxuyan hər bir kəsə ünvanlanan bu suallar qarşısında tək bir cavab verilə bilər: O diyar Naxçıvandır!

Bəli, bu gün muxtar respublikamızın hər guşəsi, hər qarışı özünün görünməmiş abadlıq və quruculuq mərhələsini yaşayır. Bu quruculuq və abadlıqdan yetərincə pay alan Şahbuz rayonu da buraya üz tutan insanları özünün təsərrüfat qayğılarının aşıb-daşdığı, hər küçədə quruculuq işlərinin vüsət aldığı bir an ilə qarşılayır. Muxtar respublikamızın bütün bölgələri kimi, Şahbuzun da timsalında müstəqillik illərinin mənzərəsinə tamaşa etməyimiz kifayətdir ki, inkişafın, quruculuğun, tərəqqinin zamanı necə qabaqladığının şahidi olaq. Reallıq odur ki, öz torpağına, elinə bağlı insanların gərgin zəhməti sayəsində insanları narahatlıq məngənəsində sıxan xoşagəlməz hallar artıq aradan qaldırılıb. 2021-ci ilin ilk yarım ilində və yanvar-iyul aylarında Şahbuz rayonunun sosial-iqtisadi inkişafının göstəricilərinə nəzər saldıqda bütün sadalananlar öz təsdiqini bir daha tapır.

İldən-ilə həcmi genişlənən tikinti-quruculuq tədbirləri bəhs olunan dövrdə də uğurla davam etdirilib,



günü-gündən gözəlləşən Şahbuzun hüsnünü quruculuq töhfələri daha da gözəlləşdirib. Belə ki, tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 0,5 faiz artaraq 12 milyon 622 min 800 manat təşkil edib.

Şahbuz şəhərində “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin inzibati binasının və Şahbuz Rayon Tarix Diyarşünaslıq Muzeyi üçün yeni binanın inşası davam etdirilib.

Rayonda həyata keçirilən tədbirlər, turizm obyektlərinin, istehsal və xidmət sahələrinin yaradılması, iş yerlərinin açılması məskunlaşmanı daha da artırmaqla bərabər, Şahbuzun hüsnünün yaraşıqlı evlərlə bəzənməsi ilə də nəticələnib. Bu baxımdan 2021-ci ilin ilk yarım ili ərzində rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 3 min 745 yaşayış sahəsi istifadəyə verilib. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın qəbul olunması bundan sonrakı dövrdə də bütün bölgələrin sakinləri kimi, zəhmətkeş şahbuzluların sosial rifahının yüksəlməsinə, məşğulluqlarının daha da artırılmasına öz töhfəsini verəcək.

Dağlıq və dağətəyi zonaları, cəlbedici flora və faunası, coğrafi şəraiti ilə diqqətçəkən Şahbuzda kənd təsərrüfatı sahələrinin inkişafı prioritet istiqamət kimi hər il diqqət mərkəzində saxlanılır, torpaqların münbitliyinin artırılması üçün görülən aqrotexniki tədbirlər, mülkiyyətçilərlə aparılan maarifləndirici söhbətlər əkilən ərazilərin miqyasının ilbəil daha da genişlənməsi ilə nəticələnir. Artıq neçə illərdir ki, fermerlərə subsidiya və gübrələrin verilməsi, texnikalarla təminat, o cümlədən keyfiyyətli yerli toxum sort-



larından istifadə əkinçilikdə məhsuldarlığın da səviyyəsini artırır. Rayonda Türkeş və Sələsüz kəndlərində qapalı suvarma şəbəkəsinin qurulması, Külüs kəndində yeni nasos stansiyasının tikilərək sakinlərin istifadəsinə verilməsi kimi bu sahədə görülən işlər nəticəsində artıq təsərrüfat sahibləri su problemi ilə də qətiyyən üzləşmirlər. Statistik göstəricilər də belə deməyə əsas verir ki, şahbuzlular əkin-biçin işlərinə xüsusi önəm verir və əkinlərin vaxtlı-vaxtında suvarılması, düzgün aqrotexniki qulluğun göstərilməsi, son nəticədə, məhsul bolluğuna yol açıb. Qazanılan uğurlardan ruhlanan təsərrüfat adamları 2021-ci ilin məhsulu üçün 2769 hektar sahədə əkin aparmışlar. Sahələrdən 3146 ton buğda, 878 kiloqram arpa, 4309 ton dənli və dənli-paxlalılar, 2304 ton kartof, 1047 ton tərəvəz, 1387 ton meyvə tədarük edilib. Bu, bütün istehsal sahələri üzrə əvvəlki ildən xeyli çoxdur.

Şahbuz sakinlərinin əsas məşğuliyyətlərindən olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi burada iribuynuzlu mal-qaranın, xırdabuynuzlu heyvanların baş sayının artmasına müsbət təsir göstərib. Bunun nəticəsidir ki, hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış-yarmarkalarında Şahbuz təsərrüfatçılarının istehsal etdikləri ağartı məhsulları piştaxtaları bəzəyir.

Dağətəyi otlaq əraziləri bol olan rayonda heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi təsərrüfatçılara bu istiqamətdə işlərini düzgün qurmağa imkan verir. “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin uğurlu icrası iribuynuzlu mal-qaranın, xırdabuynuzlu heyvanların baş sayının, eləcə də təbii məhsul istehsalının artımına yol açır. Bu müsbət tendensiyanı bəhs olunan dövrün statistik nəticələrində də görmək mümkündür. 2021-ci ilin yanvar-iyul aylarında Şahbuz rayonunda diri çəkidə 1602 ton ət, 11386 ton süd, 10 milyon 541 min ədəd yumurta, 151,4 ton yun istehsal edilib. 2020-ci ilin yanvar-iyul ayları ilə müqayisədə ət istehsalı 1,4 faiz, yun istehsalı 1,2 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 14,7 faiz artıb.

Muxtar respublikamızın təbiət gözəli olan Şahbuz bütün fəsillərdə füsunkar görünüşü, bənzərsiz təbiəti ilə turistləri cəlb edən bölgədir. Yazı çiçək ətirli, qışı möcüzə, yayı bir başqa mənzərə, payızı bol meyvəli olan rayonun son illər aparılan quruculuq işləri ilə daha da gözəlləşən, müasirləşən hüsnü, infrastruktur sahələrinin inkişafı buranı əsl turizm məkanına çevirib. Şahbuzda 140-a yaxın tarix-mədəniyyət abidəsinin qeydiyyata alınması, onlardan 6-nın dünya əhəmiyyətli, böyük əksəriyyətinin isə arxeoloji abidələr olması turistlərin diqqətini çəkən məqamlardandır. Rayonun coğrafi mövqeyi isə burada ekoturizm, kənd yaşıl, müalicə, qış və digər turizm növlərinin inkişafına böyük imkan yaradır.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq isə gözəl təbiəti, heyrətamiz coğrafi mövqeyi olan turizm üçün çox əlverişli kənddir. Burada 2013-cü ildən fəaliyyət göstərən istirahət mərkəzi kənddə turizmin inkişafına təkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına uyğun olaraq əlverişli təbii-coğrafi şəraitə malik olan Ağbulaqda kənd turizm-istirahət bölgəsinin yaradılması və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb.

### Son söz

***Bu gün yaşadığımız rayonda hansı sahəyə baxsaq, hansı ünvana üz tutsaq, görərik ki, quruculuq tədbirləri rayonun füsunkar təbii gözəlliklərinə əlavə naxışlar vurub və bu proses bu gün də davam etdirilir. Ötən dövr ərzində elə böyük nailiyyətlər əldə edilib ki, bu uğurların qazanılması ilə keçmişdən qalan miskin görünüşü gözəlliklər əvəzləyib, ağır günlər xatirələrə çevrilib. Bütün yaradılanları görən sakinlərlə söhbət zamanı hamısı bir ağızdan qeyd edirlər ki, bu inkişaf və tərəqqi, doğrudan da, insan əlinin yarada biləcəyi ən gözəl möcüzədir. Əminliklə qeyd edə bilərik ki, burada qazanılan nailiyyətlər düzgün idarəetmənin nəticəsi, Vətən sevgisinin, yurd sahibliyinin misilsiz nümunəsidir. Bunu son həddə hesab etməyən rayon sakinləri daha yüksək göstəricilərə nail olacaqlarına inanırlar. Çünki arxalarında güclü dövlətin durduğunu görür, belə dövlətin vətəndaşları olmaqla qürur duyurlar.***

**Pərviz HACILI**
*“Oğuz səsi” qəzetinin redaktoru*




Yeni nəşrlər

## Dövlətçilik tariximizin mühüm mərhələsinə işıq salan dəyərli nəşr

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında 2019-cu il 24 sentyabr tarixli Sərəncamı əsasında akademik İsmayıl Hacıyevin "Araz-Türk Cümhuriyyəti" adlı kitabı işıq üzü görüb.*

AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlinin elmi redaktorluğu ilə işıq üzü görən kitabda yeni sənəd və materiallar dövriyyəyə gətirilməklə Araz-Türk Cümhuriyyətinin tarixi araşdırılır. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr edilən kitab Naxçıvan bölgəsində hərbi-siyasi vəziyyət, Araz-Türk Cümhuriyyətinin yaradılması zərurətinə, yaranma tarixinə, mərkəzinə, rəhbərlərinə, bölgənin erməni daşnaklarının basqınlarından qorunmasına, süqutu, tarixi əhəmiyyətinə, Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrinə diqqət yetirilib, bir sıra tarixi fakt və hadisələrə aydınlıq gətirilib.

Ön səhifədə ulu öndərin ***"Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir"*** kəlamı diqqəti cəlb edir. Kitabı vərəqlədikdə ilk səhifələrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında 2019-cu il 24 sentyabr tarixli Sərəncamı öz əksini tapıb. "Giriş" və 3 fəsildən ibarət olan kitabın girişində 1920-ci ildə ölkəmizin tarixi ərazilərindən olan Zəngəzurun itirilməsindən, Naxçıvanı Azərbaycandan ayrı salmaq cəhd və məqsədlərindən, erməni vəhşiliyindən, milli vətənpərvər qüvvələrin Naxçıvan ərazisini erməni təcavüzündən qorumaq üçün Araz-Türk Cümhuriyyətinin yaradılması və onun mühüm tarixi xidmətindən bəhs olunur.

Birinci fəsildə "Araz-Türk Cümhuriyyətinin yaranması ərəfəsində Naxçıvan diyarında hərbi-siyasi vəziyyət" başlığı altında Naxçıvanda siyasi-vəziyyət, ermənilərin Naxçıvana qarşı ərazi iddiaları və silahlı müdaxiləsi, Osmanlı dövlətinin diyarımıza siyasi-hərbi yardımı, Osmanlı ordusunun Naxçıvanı tərk etməsi haqqında məlumatlar öz əksini tapıb.

İkinci fəsildə Araz-Türk Cümhuriyyətinin yaranması, hakimiyyət strukturu, ərazisi, əhalisi, paytaxtı, cümhuriyyətdə hərbi qüvvələrin təşkili haqqında faktlar yer alır, növbəti fəsildə isə "Araz-Türk Cümhuriyyətinin fəaliyyəti və süqutu" başlığı altında bölgənin ərazi bütövlüyü uğrunda erməni daşnaklarına qarşı mübarizəsi, Azərbaycan Xalq, Cənub-Qərbi Qafqaz cümhuriyyətləri ilə əlaqələri, süqutu, bundan sonra bölgədəki ictimai-siyasi və hərbi vəziyyət ətraflı şəkildə şərh olunur.

Kitabın son səhifələrində "Nəticə" başlığı altında şərh olunan məqalə isə, ümumilikdə, hadisələrin məğzini açaraq mahiyyətinə sirayət edir.

Kitabın "Əlavələr" hissəsində ermənilərə qarşı Osmanlı qüvvələrindən yardım istənilməsi haqqında Mirzə Cəlil adlı şəxs tərəfindən Naxçıvan əhalisinin nümayəndəsi Cabbarzadə Nağı Əfəndi ilə göndərilən 26 iyun 1919-cu ildə yazılmış məktub, Araz-Türk Cümhuriyyətinin Qurtuluş Bəyannaməsi, Araz-Türk Hökumətinin elan edilməsindən iki gün əvvəl – 16 noyabr 1918-ci ildə hökumətin qurtuluşunu hazırlayan heyət tərəfindən IX ordu komandanlığına göndərilən teleqraf, naxçıvanlıların öz torpaqlarının qurulan Azərbaycan Cümhuriyyətinə birləşdiyi haqqında elan öz əksini tapıb. Kitabda yer alan Azərbaycan Respublikasının Nazirlər Şurasının sədrinə 6-10 noyabr 1919-cu il yazılan məktub diqqəti cəlb edir. Məktubda yazılır: "Polkovnik Haskel də bir neçə günlüyə bura gəlib... O özünün Bakıda ehtiramla qəbul olunmasından çox razıdır. Bizim sadə camaat xoşuna gəlib, "xalqınız sülhsevər xalqdır və qətiyyən ermənilərin düşməni deyil, əgər siyasət adamları olmasaydı, ermənilər də sakit yaşayardılar", – deyir. Naxçıvan və Şərur dairələrində indi çox sakitlikdir. Amerikalı qubernatorun idarə etdiyi neytral zona yaradılmışdır".

Kitabın son səhifələrində noyabr 1918-mart 1919-cu illərdə Naxçıvan Araz-Türk Cümhuriyyətinin, dekabr 1918-aprel 1919-cu illər Cənub-Qafqaz Respublikasının xəritələri, Araz-Türk Cümhuriyyəti bayrağının görüntüləri öz əksini tapıb. Həmçinin dövlətçiliyimiz tarixində müstəsna xidmətləri olan görkəmli ictimai-siyasi xadimlərin şəkilləri, Əmir bəy Nərimanbəyovun adı və imzası olan arxiv sənədləri yer alıb.

Ölkəmiz üçün çox gərgin bir dövrdə azərbaycanlıların düşmənlərə qarşı mübarizə məqsədilə birləşdirilməsində mühüm rol oynayan, ən başlıcası isə bölgənin ermənilərə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü qoruyan Araz-Türk Cümhuriyyətindən bəhs edən nəşr tarixçi və tədqiqatçılar, ictimaiyyət, elm nümayəndələri, eləcə də Azərbaycanın dövlətçilik tarixini dərindən öyrənmək istəyənlər üçün fundamental mənbədir.

**Gülcamal TAHİROVA**

---

***Əməksevər bağban üçün barverən ağac necə qiymətlidirsə, elmi, təhsili, nailiyyətləri ilə başucalığı gətirən övlad da valideyn üçün o qədər dəyərli və qürurvericidir. Bu mənada, böyük filosoflar da əbəs yerə elmsiz adamı meyvəsiz ağaca bənzətmirlər. Bəli, uşaq dünyaya göz açandan bəri hər əziyyətinə qatlaşan, üzərində, sözün yaxşı mənasında, "yarpaq kimi titrəyən" valideyn üçün dünyada ən gözəl hədiyyə övladının qazandığı uğurlardır. Təbii ki, uğurlu gələcəyin möhkəm təməli təhsildən asılıdır. Məhz buna görədir ki, övladının gələcəyi üçün məsuliyyət hissi keçirən qayğıkeş ata və anaya ona verəcəyi ən böyük hədiyyənin təhsil olduğunu düşünür. Çünki müasir dövrdə yalnız təhsilli, savadlı insan həyatda özünə üstün mövqe tutur, gələcəyi haqqında planlar qurараq istəyinə çatmağı bacarır. Əsrlərdir, dillərdə aforizmə çevrilən, böyük şairimiz Nizami Gəncəvinin "Qüvvət elmdədir, başqa cür heç kəs, hеç kəsə üstünlük eyləyə bilməz" kəlamı da hər birimizə cəmiyyətdə elmin, təhsilin, savadın hər şeydən üstün olduğunu aşılayır, insanları elm dəryasına baş vurmağa, onun incəliklərinə yiyələnməyə, sənətin, peşənin kamil bilicisi olmağa səsləyir. Müasir dövrümüzdə elm və texnologiyanın günbəgün yeniləşdiyini nəzərə alanda elmli, təhsilli yetişməyin, böyük mənada, önəmli olduğu daha qabarıq şəkildə ortaya çıxır...***

*Təhsil millətin gələcəyidir*

## İnamlı, perspektivli gələcəyə aparan yolun yolçuları...

Muxtar respublikamızda da gənclərin elmə, təhsilə, müxtəlif sənət, peşə sahələrinə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır, təhsil müəssisələrində innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadə öz müsbət nəticələrini verir. Qəbul imtahanlarında əldə olunan uğurların yüksələn templə artması da məhz təhsil sahəsində görülən işlərin, bu istiqamətdə reallaşdırılan layihələrin bəhrələridir. 2020-2021-ci tədris ilinin qəbul imtahanlarında qazanılan nailiyyətlər muxtar respublikamızın bütün bölgələri kimi, Şərur rayonunun timsalında da ürəkaçandır. Belə ki, rayonun 54 ümumtəhsil məktəbini 472 şagird bitirib, 428 abituriyent ali və orta ixtisas təhsili məktəblərinə sənəd verib, 265 məzun keçid balını üstələyib ki, onlardan da 35-i 500-700 intervalında bal toplayıb. Rayonun Kürçülü, İbadulla, Tənənəm kəndlərinin və Şərur şəhərinin yüksək bal toplayan abituriyentləri ilə həmsöhbət olub, fikirlərini öyrəndik:



***Şərur şəhər 1 nömrəli tam orta məktəbin məzunu Günel Əhmədli*** III ixtisas qrupunda 625 bal toplayaraq rayon üzrə yüksək nəticə göstərən abituriyentlər sırasına adını yazdırıb. Onunla söhbət zamanı dedi ki, məktəbimizdə yaradılan tədris şəraiti, müəllimlərin şagirdlərə, onların bilikli yetişməyinə göstərdiyi diqqət hər il yüksək bal toplayanların sayının çoxalması ilə nəticələnir. Ötən illərdə bu ürəkaçan halları, tələbə adını qazanan uşaqları gördükcə, onların sevincinə şahid olduqca ürəyimdə "Kaş mənə də bir gün belə xoşbəxtlik qismət ola", – deyərək çox düşünmüşəm. İştirak etdiyim sınaq imtahanlarında yüksək bal topladığım üçün həm müəllimlərimin, həm də valideynlərimin inamını qazanmışdım. Hər kəs qəbul imtahanlarında məndən yüksək nəticə gözləyirdi və şükürlər olsun ki, onları yanıltmadım. Ancaq, sözün düzü, bundan da artıq nəticə göstərəcəyimə inanırdım. Tələbə adını qazananlar yaxşı bilir ki, imtahan vaxtı stress keçirirsən, bildiyin sualları da bəzən səhv yazırsan. Tarixə nəzər salanda görürük ki, neçə-neçə ölkələri fəth etmiş sərkərdələr, böyük alimlər, müəllimlər imtahandan çəkiniblər. İndi gör biz şagirdlər necə həyəcan keçirirk.

Onu da deyim ki, 5-6-cı siniflərdən ən böyük arzum böyüyəndə hüquqşünas kimi çalışmaq, ölkəmə, dövlətimə, xalqıma vicdanla xidmət etmək olub. Elə bu məqsədlə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçəcəyəm. İnanıram ki, topladığım bal, eləcə də ali təhsil ocağında yaradılan müasir tədris şəraiti bu ixtisasa yiyələnməyimə imkan verəcək. Fürsətdən istifadə edib üzərimdə böyük əmək sərf edən müəllimlərimə, valideynlərimə öz dərin minnətdarlığımı bildirirəm.

***Kürçülü kənd tam orta məktəbinin məzunu Zeynalabdin Hüseynzadə*** II ixtisas qrupu üzrə 605 bal toplayıb. İlk həmsöhbətimiz Zeynalabdinin ibtidai sinif müəllimi olmuş, məktəbin direktoru Zülfiyyə İbrahimova şagirdi haqqında ürəkdolusu danışdı. Bildirdi ki, Zeynalabdin elə məktəbə yenicə qədəm qoyan gündən öz hazırcavablığı, dərslərdəki fəallığı, qavrama qabiliyyəti ilə həmyaşıdları arasında seçilib. Builki abituriyentlər arasında ən yüksək nəticə göstərməklə məktəbimizin adını uca etdiyi üçün bütün müəllimləri kimi mən də qürur hissi keçirirəm. Onun yuxarı siniflərdə fəallığı, dəqiq elmlərə, xüsusilə də riyaziyyata, coğrafiyaya həddsiz marağı məndə bu uşağın gələcəyinin parlaq olacağı fikrini yaratmışdı. Böyük Çin filosofu Konfutsi deyirdi ki, heç kim müvəffəqiyyət nərdivanını əlləri cibində çıxmayıb. Bəli, tanınmış sənət adamlarının, görkəmli şəxsiyyətlərin həyatına nəzər salanda aydın olur ki, onlar həmin yüksək pilləyə asanca gəlib çatmayıblar. Həyatın keşməkeşli yollarında əsən burulğanlarla tez-tez üzləşiblər. Savadları, dünyagörüşləri ilə qazandıqları təcrübə sayəsində tarixin sınaqlarından üzüağ çıxa biliblər. Yaşadığımız dünya mübarizləri sevir, gərək arxasınca getdiyin işin çətinliyi səni qorxutmasın, sonadək məqsədin naminə çalışasan. Bu baxımdan təcrübəmə əsaslanıb deyə bilərəm ki, bəzi şagirdlərin yüksək mənimsəmə qabiliyyəti olsa da, hər hansı fənnə marağı, keçilən dərsləri qarşılarına məqsəd qoymurlar. Nəticədə, uğur da ondan uzaq qaçır. Lakin Zeynalabdində bu məqsədi hər zaman hiss etmişəm. O, riyaziyyat, coğrafiya fənləri üzrə olimpiadalarda, müxtəlif bilik yarışlarında uğurlu iştirakı ilə bizi qürurlandırıb. Sınaq imtahanlarında hər zaman yüksək bal toplayan Zeynalabdinin qəbulda da uğur qazanacağına şübhəmiz yox idi və o, biliyinin məntiqi nəticəsi ilə biz pedaqoji kollektivi yanıltmadı.



Buraxılış imtahanında Şərur rayonu üzrə ikinci ən yüksək nəticə göstərərək "Qızıl" nişan qazanan Zeynalabdin Hüseynzadə də qazandığı uğurun sevincini bölüşərək bildirdi ki, uşaqlıqdan böyüyəndə maliyyə, mühasibatlıq sahəsində çalışmağı qarşıma məqsəd qoymuşdum. Qəbul imtahanlarında topladığım balı da nəzərə alaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə ixtisasını seçmək istəyirəm. İnanıram ki, uşaqlıq arzumu həyata keçirməyi bacaracağam. Muxtar respublika üzrə tələbə adını qazanan bütün gənclər kimi, mənim üçün də daha bir əlamətdar hadisə isə Ali Məclisin Sədri ilə görüşmək olacaq. Biz gənclərin qarşısında geniş üfüqlər açdığına görə dövlətimizə minnətdarlıq edirəm.



***Tənənəm kənd tam orta məktəbini "Gümüş" nişanla bitirən Sunay Dünyamaliyeva*** I ixtisas qrupu üzrə 623 bal toplayaraq müəllim və valideynlərini sevindirib. Bu barədə fikirləri maraqlıdır:

– Amerikalı professor Riçard Nelsonun gözəl sözü var. Deyir, adi insanlar vaxtlarını necə keçirməyi düşünür, müdrik insanlar isə vaxtdan necə faydalanmağı. Bəli, bu hikmətli ifadədən yola çıxıb demək olar ki, gərək həyatda heç bir anı boş buraxmayıb, öyrənməkdən, çalışmaqdan usanmayasan. Ancaq bir həqiqəti də unutmaq olmaz ki, dəyişən zamanla, dövrlə ayaqlaşmaq, müasir texnologiyalardan baş çıxarmaq da zəruridir. Əks halda, özünə perspektivli gələcək qurmağın, tutduğun yolda uğur qazanmağın mümkünsüz olar. Elə qəbul imtahanlarına hazırlaşan zaman qarşımdakı məqsəd, gələcək planlarım da bununla bağlı olub. Topladığım bala uyğun olaraq Bakı Ali Neft Məktəbinin Neft-qaz mühəndisliyi ixtisasını seçmək istəyirəm və inanıram ki, arzuma çatacağam.

Mütaliəyə böyük marağı olan Sunay bu barədə deyir:

– İndiyədək həm xarici, həm də Azərbaycan ədəbiyyatından olan bir sıra əsərlər mütaliə etmişəm. Qurban Səidin "Əli və Nino", Mikayıl Müşfiqin şeirlərini, dünya ədəbiyyatından olan əsərləri sevə-sevə oxumuşam. Fikrimcə, hər kitab bir həyatdır, məqsəddir, amaldır, axtardığın suallara ən mükəmməl cavabı elə oxuduğun əsərlərdə tapırsan. Doğru deyiblər ki, yazıçılar ölməmişdən öncə minlərlə insanın həyatını, kitab oxumayanlar isə yalnız bir həyatı yaşayırlar. Ancaq gərək təkcə oxumaqla kifayətlənməyib, əsərlərdəki hadisələrdən, qəhrəmanların həyatından özün üçün bir nəticə çıxarmağı da bacarasan. Yalnız bu yolla mütaliənin həyatına müsbət mənada təsirini görə, duya, hiss edə bilərsən.

İbadulla kənd tam orta məktəbinin cari tədris ilindəki 22 məzunundan 19-u qəbul imtahanlarında iştirak edib, 11 abituriyent keçid balını üstələyib. Ümumilikdə, Şərur rayonu üzrə ən yüksək göstərici IV ixtisas qrupu üzrə 661,1 bal toplayan ***Müseyib Abdullayevə*** məxsusdur. O, sevincini bölüşərək dedi ki, hələ ibtidai sinifdən dəqiq elmlərə marağım böyük olub. Riyaziyyatı ürəkdən sevmişəm, bu fənn üzrə 2021-ci ildə respublika fənn olimpiadasının qalibi olmuşam. Bu böyük uğurum üçün müəllimlərim Paşa Heydərov və Lamiyyə Abdullayevaya borcluyam, onlar bu fənnin sirlərini mənə dərindən öyrətməyə çalışıblar.



Onu da qeyd edim ki, kiçik yaşlarımdan valideynlərim gələcəkdə məni həkim kimi görmək istəyirdilər, yuxarı siniflərdə oxuyarkən muxtar respublikamızda fəaliyyət göstərən müasir səhiyyə ocaqlarında oldum, orada çalışan tibb personalı gördüm və bu sahəyə marağım daha da artdı. Beləcə, həkimlik peşəsini həyat amalıma çevirməyi qarşıma məqsəd qoydum. Qəbul imtahanlarında əldə etdiyim yüksək nəticədən sonra ürəyimdəki ümid qığılcımı daha da parladı. Arzumu reallaşdırmaq yolunda atacağım növbəti addım Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasını seçməkdir və inanıram ki, həmin ixtisasda oxumaq mənə nəsib olacaq. Xüsusən qeyd etməliyəm ki, uğur qazanmaq üçün ailəmin, müəllimlərimin dəstəyi böyük olub. Onlardan aldığım dəstək sayəsində səylə çalışdım və ürəkaçan nəticəni qazandım. Həmçinin orta məktəb illərində tennis və şahmat idman növləri üzrə muxtar respublika səviyyəli, rayondaxili bir sıra yarışlarda da uğurlar qazanmışam. Düşünürəm ki, istənilən sahədə nailiyyət əldə etmənin yeganə yolu əzmlə çalışaraq incəlikləri öyrənib düzgün tətbiq etməyi bacarmaqdır. Fürsətdən istifadə edib bütün abituriyentlərə ixtisas seçimində uğurlar arzulayıram.

*Xoşbəxt, inamlı, perspektivli gələcəyə doğru gedən yolun üfüqləri yalnız elm, savad və təhsillə açılır. Hər il muxtar respublikamızda yüzlərlə abituriyent uğurlu gələcəyə aparan elm ziyasının yolçularına çevrilir. 2020-2021-ci tədris ilinin qəbul imtahanlarında əldə olunan göstəricilər bu sahədə qazanılan nailiyyətlərin artan templə davam edəcəyini deməyə əsas verir.*

**Nail ƏSGƏROV**

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50*

## Sənətin zirvəsində və ya rənglərin də səsi var...

*Bəşər sivilizasiyasının mədəniyyət ocağı olan Naxçıvanımızda rəssamlığın tarixi lap qədim zamanlardan, Gəmiqaya təsvirlərindən başlamış tarixin bütün dövrləri ilə səsləşən intibah mədəniyyətinin, memarlıq məktəbinin təsiri ilə inkişaf etmiş, diyarımızın təbiət gözəlliklərini öz fırçası ilə tariximizə həkk edən realist rəssamlığın banisi Bəhruz Kəngərli ilə özünün ən qüdrətli dövrünə çatmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 2 mart tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuş, Ali Məclisin Sədri cənab Vasif Talıbov həmin tədbirdə çıxış edərək demişdir:* ***“Naxçıvan rəssamlıq məktəbinin qədim və zəngin tarixi vardır. Bu məktəbin görkəmli nümayəndələri təsviri sənətin müxtəlif janrlarında tariximizi, abidələrimizi, milli-mənəvi dəyərlərimizi, təbiətimizi, xalqımızın həyatını əks etdirməklə böyük mədəniyyət salnaməsi yaratmışlar. Azərbaycan realist rəssamlığının əsasını qoymuş Bəhruz Kəngərlinin, teatr rəssamlığının inkişafında mühüm xidmətləri olan Şamil Qazıyevin və digər rəssamların əsərləri Naxçıvanın dünəni ilə bu günü arasında mədəni bağlardır”.***



Elə budəfəki söhbətimizdə başdan-başa təbiət muzeyi olan Naxçıvanımızın gözoxşayan gözəlliklərini öz fırçası ilə kətan üzərinə köçürən rəssamlarımızdan biri – Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov haqqındadır. 70 yaşının zirvə çağında olan sənətkarla söhbət etmək, rəssamlıq fəaliyyəti ilə yaxından tanış olmaq üçün onun emalatxanasının, öz dili ilə desək, kiçik sənət dünyasının qonağı olduq.

Telman Abdinov 1954-cü ildə Şahbuz rayonunun Külüs kəndində zəhmətkeş bir ailədə anadan olub. İnsan yaşadığı yerlə bütünləşir, – deyirlər, elə Külüs kəndinin saf havası, büllur kimi təmiz suyu, əsrarəngiz mənzərələri bu yaşlı sənətkara yaradıcılıq həvəsi verib. Lap kiçik yaşlarından rəsmə maraqgöstərən sənətkar üçün televizorun ağ-qara ekranında Azərbaycanın görkəmli rəssamları Səttar Bəhlulzadəni, Tahir Salahovu izləmək bu sahəyə olan marağını daha da artırıb. Elə bu ülvi marağı onun əlindən tutaraq 1972-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə aparır. 1978-ci ildə isə məktəbi fərqlənmə diplomu ilə bitirib Naxçıvana qayıdaraq yaradıcılıq fəaliyyətinə başlayır. Hələ tələbə ikən qobelen janrı əsasında çəkdiyi ilk rəsm əsəri olan “Abşeron ritmləri” və xalça texnikası üslubunda ərsəyə gətirdiyi “Qadın çantası” əsəri Səttar Bəhlulzadə adına şəkil qalereyasında işıq üzü görüb. Gənc rəssamın yaratdığı bu əsərlərdən təsirlənən Toğrul Nərimanbəyov “Ədəbiyyat və incəsənət” qəzetində yazmışdı: “Telman Abdinov tətbiqi sənətin qobelen üslubunda işlədiyi əsərlərlə Azərbaycan rəssamlığına yeni səsin, yeni nəfəsin gəldiyini xəbər verir. Bu tablolardakı rəng çalarlarının harmoniyası, müəllifin nəyi çatdırmaq istəyi, kövrək rəssam qəlbinin ağ kətan üzərinə köçürülmüş həzin pıçıltıları tamaşaçını düşünməyə sövq edir”.





Bu incəsənət adamının emalatxanasında ecazkar, fantastik bir dünyanın qonağı olursan. Burada duyğuların hələ açılmamış sirləri də var, dərin məna və məzmun kəsb edən, tamaşaçılarını heyran qoyan tablolar da. Rənglərin vəhdəti, ideyaların füsunkarlığı, rəsmlərin nizamla, ahənglə düzülüşü sənətin gözəlliyindən xəbər verir. Rəsm əsərləri ilə “söhbət edərkən” aydın olur ki, sənətkarın yaradıcılığında rəssamlığın bütün janrlarından məharətlə istifadə edilib. Əsərlərində isə vətənpərvərlik və mənzərə mövzularını ön plana çəkib. Bu sənət dünyası kiçik də olsa, umman qədər incəsənət sevgisini özündə daşıyır. Rəssamlığın sirlərindən danışarkən Telman Abdinovun bu sahəyə olan sonsuz məhəbbəti hiss olunmaya bilməz. Rəssam incəsənətin sirlərindən söhbət açaraq deyir ki, Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir. Yurdumuzun bu gözoxşayan gözəlliyini istər mənim, istərsə də digər rəssam həmkarlarımın əsərlərində görmək mümkündür. Rəssamları digər sənət adamlarından fərqləndirən bir çox xüsusiyyətləri var. Ən əsası odur ki, onlar gözlə görünməyən məqamları görə bilirlər. Musiqi kimi rəsm də duyğuların cilalanmış həm portreti, həm də mənzərəsidir… Rəssamlıq sənəti ilə yeni məşğul olan insanlar bilməlidir ki, bu sənətin əsas əlamətləri obrazlılıq, emosionallıqdır. Hər bir rəssam çalışmalıdır ki, işini sevsin, onun sirlərinə dərindən yiyələnsin. Onun emalatxanasına daxil olan hər kəs, sözün əsl mənasında, özünü fantastik bir dünyada hiss etsin. Necə ki, siz bura daxil olarkən divarlardan asılmış əsərlərin, sanki cazibəsinə düşdünüz, bax bu halı digər sənətsevərlərin timsalında görmək də bir rəssam üçün ən böyük uğur və sevincdir. Elə yaradıcılığın əsas məqsədi də budur, tamaşaçının sevgisini qazanmaq.

Rəssamın düşüncə tərzini inkişaf etdirən ilham qaynağı olur,– deyir Telman Abdinov. Qeyd edir ki, rəssamlıq da incəsənətin digər növləri kimi, daha geniş auditoriyanın marağını özünə çəkməli və öz auditoriyasını daha da genişləndirməlidir. Klassik sənət cərəyanının, rəssamlığın intibah dövründən başlayaraq bu günə qədər dəbdən düşməməsi, yeniliklərin əlavə edilməsi də məhz incəsənət adamlarının öz duyğu və düşüncələrindən əlavə tamaşaçı auditoriyasının marağını da ön plana çəkməsində gizlidir. İllərin qazandırdığı təcrübəyə söykənərək, deyə bilərəm ki, əgər, doğrudan da, sənətkar arzuladığı obrazı yaradıbsa, deməli, artıq o tükənib. Çünki bir rəssamın üfüqləri geniş olmalı, əsərində eyni anda bir yox, bir neçə obrazı yaratmağı bacarmalıdır. Elə bu səbəbdən yaradıcı insanların təbiəti sevmələri və daha çox gözəl, gözoxşayan mənzərələri vəsf etməsi təsadüfi deyil. Təbiət özü yaradıcılıq üçün geniş məkandır. O ki qaldı Naxçıvanın gözoxşayan mənzərələri ola...

Bu sənət adamının səmimi söhbətini dinləmək, sanki insana yaradıcılıq stimulu verir, ruhunu dincəldir. Həmsöhbətim qeyd edir ki, hər bir rəssamın daxili aləmi və məqsədi onun yaradıcılığındakı cərəyan xəttidir. Hər hansı əsərin yaranmasında ilham qaynağı olmalıdır. Rənglərin palitrada qarışdırılması belə, rəssam üçün ilham pərisinə çevrilə bilər. Rəssam olmaq üçün gərək böyük intellektə, mədəniyyətə və biliyə malik olasan. Ancaq bu halda öz düşüncələrini tamaşaçıya dolğun çatdıra bilərsən… Rənglər dünyasının palitrasından həzin muğam, təsnif, eləcə də hər hansı musiqi janrı çərçivəsinə sığmayan melodiya da duymaq olur. Bəli, elə bu yerdə, 70 yaşın zirvə çağında deyə bilərəm ki, rənglərin də öz səsi, öz nəğməsi var. O məstedici səsi, insanın zövqünü oxşayan həzin melodiyanı isə çəkdiyi hər şəkli qəlbi ilə görüb, ruhu ilə duyan rəssamlar eşidə bilər. İnanıram ki, bundan sonra da sənət ocağı, yaradıcılıq məktəbi olan qədim diyarımız, Naxçıvanımız neçə-neçə rəssamlar yetirəcək dünyaya. Onlar da bizim kimi dövlətimizin incəsənət insanlarına göstərdiyi böyük diqqət və qayğı ilə fəxri adlara layiq görüləcək, öz əsərləri ilə ölkəsini hər yerdə tanıdacaq.

Son olaraq onu da qeyd edim ki, incəsənət adamı üçün dövlətin dəstəyi, onun yaradıcılığına verdiyi dəyər əsas şərtdir. Bunu da ölkəmizin hər yerində görmək mümkündür. Mən də 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə “Azərbaycan Respublikasının Əməkdar rəssamı” fəxri adına layiq görülmüşəm. İllərin mənə qazandırdığı bu uğura görə cənab Prezidentimizə, muxtar respublikada hər bir incəsənət adamını daim diqqətdə saxlayan Ali Məclisin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm. Artıq bir neçə ildir ki, diyarımızda təşkil edilən “Naxçıvan-Bəşəriyyətin Beşiyi” adlı rəsm festivallarının keçirilməsi, festivallarda yerli rəssamlarla yanaşı, əcnəbilərin də iştirakının təmin edilməsi, Rəssamlar Birliyinin 50 illik yubileyinin qeyd olunması naxçıvanlı rəssamların qurub-yaratmaq əzmini daha da gücləndirib.

*Bu ecazkar sənət dünyasından ayrılarkən divarlardan asılmış, rənglərin əlvan çaları ilə kətan üzərində yaradılmış kiçik möcüzələr olan şəkillərə tamaşa edirəm. Bir rəsmdə Türkün şanlı tarixini əks edən II Qarabağ müharibəsinin zəfər ətirli mənzərəsini görürəm, fərəhlənirəm. Digər yandan şəhidlərimizin qanı ilə suvardığı Şuşa torpağının yetirib-bitirdiyi o Zəfər gülünün – xarıbülbülün ətrini hiss edir, xanəndələrin dilindən düşməyən “Həvalansın Xanın səsi, Qarabağın şikəstəsi” sədalarını eşidirəm. Çünki artıq bilirəm ki, rənglərin də öz səsi, öz nəğməsi var…*

**Məcid RƏŞADƏTOĞLU**

*Virus infeksiyalarına qarşı mübarizə tədbirləri Naxçıvan şəhərində və rayonlarda davam etdirilib.*

## Dezinfeksiya tədbirləri davam etdirilir



Əliabad qəsəbəsi, Qaraxanbəyli, Qaraçuq, Tumbul kəndlərinin əsas yolları, Aviakassa, Heydər Əliyev Sarayı Yeni Azərbaycan Partiyası, İqtisadiyyat Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Xarici İşlər İdarəsi, “Şərq qapısı” qəzeti, “Evim” AVM, “Təbriz” hoteli, Azər-Türk Bankı, Naxçıvan Televiziyası, Tarix Muzeyi, Mərkəzi Kitabxana, Kitab Evi, Arxiv İdarəsi, “Gənclik” Mərkəzi, “Beko” Satış Mərkəzi, Naxçıvan şəhər məscidi, Kukla Teatrı, 4 saylı seçki məntəqəsi və 5 nömrəli Mənzil İstismar İdarəsinin ərazisinə daxil olan ictimai yaşayış binaları, girişləri, zirzəmisi və ətrafı dezinfeksiya edilmişdir. Dezinfeksiya tədbirləri çərçivəsində Naxçıvan şəhərində 720000 kvadratmetr, rayonlarda isə 629000 kvadratmetr sahə olmaqla, ümumilikdə, 1349000 kvadratmetr sahə dezinfeksiya edilmişdir.

Muxtar respublika üzrə dezinfeksiya tədbirləri Fövqəladə Hallar Nazirliyinin 1 ədəd dezinfeksiya avtomobili, 4 ədəd xüsusi qurğu quraşdırılmış yanğınsöndürmə avtomobili, dezinfeksiya qrupları və Dövlət Baytarlıq Xidmətinin 7 ədəd dezinfeksiya avtomobili vasitəsilə həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Gənclərin “Yay məktəbi” – şəxsi inkişaf, komanda ruhu və innovativ istiqamətlər

***Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirak etdiyi sonuncu mərhələ ilə Ağbulaq İstirahət Mərkəzində təşkil olunan ənənəvi “Yay məktəbləri” sona çatdı. İyul ayından etibarən start götürən düşərgə tipli layihə fasilələrlə 5 dəfə reallaşdı.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunan “Yay məktəbləri”ndə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, könüllü gənclər və kursantlar olmaqla, ümumilikdə, 200-dən çox gəncin iştirakı təmin olundu. Gənclərin səmərəli istirahətini təşkil etməklə onların yeni bacarıqlara, intellektual və innovativ biliklərə yiyələnməsinə, sağlam və vətənpərvər ruhda formalaşmasına zəmin yaratmaq məqsədilə keçirilən hər bir “Yay məktəbi” zəngin proqrama əsaslanmaqla, 3 günlük müddəti əhatə etdi. Belə ki, gənclər muxtar respublikada uğurla tətbiq edilən müasir tədris metodu STEAM, həmçinin şəxsi inkişaf və karyera istiqamətlərinə kömək olacaq “Gələcək üçün maliyyə” təlimlərində iştirak etmək şansı əldə etdilər. Hər səhər toplu halda günə gimnastik hərəkətlərlə başlamaq, idman yarışları, “Xəmsə”, “Vətəni tanı” və “Axtar tap” kimi müxtəliftipli intellektual oyunların təşkili onların fiziki və zehni inkişafına hesablanmışdı. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın çiçəklənməsi yolundakı qətiyyətli addımlarından, ümumilikdə, həyatı və siyasi fəaliyyətindən bəhs olunan “Dahi şəxsiyyət”, “Xalqa bağışlanan ömür”, həmçinin Vətənimizin bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərin qəhrəman şəhidləri barədə hazırlanan “Poladın 7 anı”, “Səni Vətən çağırır!” sənədli filmləri qalib ölkənin gəncləri üçün qürurlu anlar yaşatdı. Keçirilən yaradıcılıq müsabiqələri, “Gender bərabərliyi”, “Sosial şəbəkələrin cəmiyyətdəki rolu” və “Əlavə peşə bacarıqları” mövzularında aparılan müzakirələr və gənc nəslin müasir dövrlə bağlı fikirlərini, gözləntilərini analiz etmək, istedadlı gəncləri kəşf etmək imkanı yaratdı. Düşərgə zamanı keçirilən konsert



proqramları, yumoristik səhnəciklər, stolüstü oyunlar, musiqi və rəqslər ilə gənclər əyləncəli anlardan da kənarda qalmadı. Ağbulaq kəndi ərazisində təşkil olunan gəzintilər vasitəsilə həm bölgənin turizm imkanlarını, ekoloji mühitin təbii imkanlarını kəşf etdilər, həm də çəkdikləri fotoşəkilləri sosial şəbəkələrdə yaymaqla insanları da bu gözəl məkana sövq etməyə çalışdılar. Onu da bildirək ki, təşkil olunan hər mərhələnin fərqlənən gəncləri sertifikat, fəxri fərman və hədiyyələrlə mükafatlandırıldılar.

Muxtar respublikamızda uğurla icra olunan dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri də məhz, budur: bilikli, bacarıqlı və vətənpərvər gənclərin formalaşdırılması. Bu baxımdan gərgin kollektiv əməyi ilə ərsəyə gələn “Yay məktəbləri”ni gənclərin uğurlu gələcəyi üçün hesablanan effektiv dövlət dəstəyi modeli kimi də qiymətləndirmək olar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 688